## MÖVZUNUN ADI:

## “Cinayət mühakimə icraatında sahələrarası preyudisiya. Mülki işlər üzrə icraatda çıxarılmış məhkəmə aktlarının, habelə inzibati məhkəmələrin vergi hüquqpozmalarına dair qanuni qüvvəyə minmiş qərarlarının cinayət prosesində preyudisial əhəmiyyəti. Eyni bir vergi hüquqpozması ilə bağlı paralel inzibati araşdırmanın və cinayət təqibinin aparılması problemi”

***(Təhlil edilməli olan mənbələr: CPM-in 28, 33, 53, 65, 142-ci maddələri, Vergi Məcəlləsi, İnzibati-Prosessual Məcəllə, Konstitusiya Məhkəməsi Plenumunun CPM-in 65-ci maddəsinin şərhinə dair qərarı və digər qərarları, Avropa Məhkəməsinin müvafiq qərarları və s.)***

## MÖVZU ÜZRƏ SUALLAR:

1) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.7 və 142.2-ci maddələrinin təfsiri, xüsusilə bu maddələrdə nəzərdə tutulmuş mülki, kommersiya işi və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarının “hadisənin olub-olmaması hissəsində” (maddə 65.7) və yaxud “hərəkətin olub-olmaması hissəsində” (maddə 142.2) cinayət prosesi üçün məcburiliyinə dair müddəalarınının “hadisə” və “hərəkət” dedikdə nəyin başa düşüldüyü kontekstində şərhi (o cümlədən bu ifadələr eyni və yaxud fərqli məna kəsb edirlərmi?). Preyudisiallığa dair qeyd edilən müddəaların CPM-in 21-ci (təqsirsizlik prezumpsiyası), 25-ci (hakimlərin müstəqilliyi), 28-ci (cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi), 33-cü (cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi) maddələrində nəzərdə tutulmuş cinayət mühakimə icraatının prinsipləri ilə müqayisəli şəkildə təhlili.

O cümlədən, xüsusilə:

1.1) Mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarında müəyyən edilmiş mülki hüquq pozuntusunun bütün faktiki halları (məsələn, borcla bağlı iddialar üzrə işlərdə borcun məbləği) “hadisə” və ya “hərəkət” anlayışı ilə ehtiva edilirmi ?

1.2) Mülki iş üzrə fiziki şəxslər arasında borcla bağlı məsələnin həllinə dair qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinin eyni bir fakt üzrə (həmin borc məbləği ilə bağlı) CM-in 178-ci maddəsi ilə (dələduzluq) cinayət işinin başlanması, cinayət işinə məhkəmədə baxılması (ittihamın həlli) məsələlərinə təsiri nədən ibarətdir, o cümlədən eyni bir halın mülki icraatda mülki-hüquqi xarakterli münasibətlər kimi qiymətləndirilməsi sonradan - cinayət prosesində onun cinayət xarakterli fakt kimi qiymətləndirilməsi ziddiyyət yaratmırmı və birinci icraat ikincinin qarşısını almırmı və yaxud

onun nəticələrini zəiflətmirmi (CM-in 65.7-ci maddəsinin tələbi baxmından) ?

1.3) Vergi Məcəlləsinin pozuntusu ilə bağlı inzibati iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarında müəyyən edilmiş vergi hüquq pozuntusunun bütün faktiki halları (məsələn, büdcəyə ödənilməyən verginin məbləği) “hadisə” və ya “hərəkət” anlayışı ilə ehtiva edilirmi ?

2) Vergi orqanı tərəfindən vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilmə haqqında qərar çıxarıldıqdan sonra, həmin qərar vergi ödəyicisi tərəfindən mübahisələndirildikdə, cinayət təqibi orqanı ümumiyyətlə cinayət işi başlamalıdırmı ?

3) Əgər cinayət işi başlanılmışdırsa, həmin işin icraatı inzibati mübahisə üzrə məhkəmə çəkişmələri yekunlaşanadək dayandırılmalıdırmı və yaxud əksinə - artıq cinayət işinin başlanması nəzərə alınmaqla inzibati məhkəmədə aparılan icraat dayandırılmalıdırmı ?

4) İşin icraatının dayandırılması məsələsinə münasibət cinayət işinin ibtidai araşdırma orqanında və ya məhkəmə baxışında olmasından asılı olaraq dəyişə bilərmi ?

5) İşlərin bir-birindən asılılığı məsələsinə qiymət verilərkən hansı meyarlar rəhbər tutulmalıdır ?

6) Həm inzibati məhkəmədə, həm də cinayət işinə baxan məhkəmədə eyni zamanda paralel icraatlar aparıla bilərmi? Belə paralel icraatlar hansı şərtlər daxilində yolverilən ola bilər? Paralel icraatlar aparıldıqda, sözügedən iki məhkəmə icraatının nəticələrinin şəxsin eyni əmələ görə təkrar məhkum olunması halını yaratmaması üçün icraatlar hansı qaydada aparılmalıdır və onların bir-birilərinə mümkün təsirləri nədən ibarət ola bilər (o cümlədən, inzibati məhkəmə tərəfindən Vergi Məcəlləsinə əsasən tətbiq edilmiş sanksiyalar cinayət işi üzrə icraatda cəza təyin edilərkən nəzərə alınmalıdırmı) ?

7) Vergi orqanı tərəfindən vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilmə haqqında qərar çıxarıldıqdan sonra, həmin qərar vergi ödəyicisi tərəfindən mübahisələndirilmədikdə və ya mübahisələndirilməsinə baxmayaraq vergi orqanının qərarı qüvvədə qaldıqda, cinayət işinə baxan məhkəmə artıq daha əvvəl inzibati aktla müəyyən edilmiş azaldılmış verginin məbləğini apardığı araşdırmanın nəticəsi olaraq başqa məbləğdə (inzibati aktda göstəriləndən daha az və ya daha çox) müəyyən edə bilərmi ?

8) Cinayət işinə baxan məhkəmə vergi orqanının qərarını həm inzibati icraatla bağlı normaların tələblərinə, həm də maddi normaların tələblərinə uyğunluqla bağlı yoxlamaq hüququna və imkanına sahibdirmi ?

9) Bir sıra hallarda cinayət təqibinin gedişində vergi ödəyiciləri tərəfindən yayındırılmış vergilərin ödənildiyinə, eləcə də vergi ödəyicilərinin yazılı razılığına istinadla ibtiadi araşdırma orqanları tərəfindən bəraətverici olmayan əsaslarla cinayət işinin başlanılmasının rədd edilməsi, yaxud başlanılmış cinayət işinin icraatına xitam verilməsi haqqında qərarlar qəbul edilir. Və yaxud eyni əsasla məhkəmə baxışında cinayət işi üzrə icraata xitam verilir. Daha sonra isə vergi ödəyiciləri cinayət təqibi orqanının qərarını mübahisələndirmədən (ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yaxud məhkəmə nəzarətini həyata keçirən məhkəməyə şikayət vermədən), eynilə cinayət işi üzrə icraata xitam verilməsi barədə məhkəmə qərarını yuxarı instansiya məhkəmələrində mübahisləndirmədən vergilərin hesablanmasına dair qərarları (inzibati aktları) inzibati məhkəmələrdə mübahisələndirirlər. Belə vəziyyətlərdə, cinayət təqibi orqanının və yaxud məhkəmənin qüvvədə olan qərarı mövcud olduğu halda, vergilərin hesablanmasına dair qərarların inzibati məhkəmələrdə mübahisələndirilməsi və məhkəmələr tərəfindən həmin işlərə baxılması yolverilədirmi?

Əgər bu mümkündürsə:

9.1) Büdcədən yayındırılmış vergi məbləğinə dair və işin əhəmiyyət kəsb edən digər məsələləri barədə cinayət işi üzrə icraata xitam verilməsi və ya cinayət işinin başlanılmasının rədd edilməsi barədə ibtidai istintaq orqanının və yaxud cinayət işi üzrə icraata xitam verilməsi barədə məhkəmə qərarında müəyyən edilmiş kimi göstərilən hallar inzibati icraatda yenidən sübut edilmədən qəbul edilə, yəni qeyd olunan qərarlar preyudisal əhəmiyyətli aktlar kimi nəzərdən keçirilə bilərmi?

9.2) İnzibati məhkəmə icraatı vergi ödəyicisinin xeyrinə yekunlaşarsa, ibtidai araşdırmanın gedişində ödənilmiş vəsaitin geri qaytarılması məsələsi necə həll olunmalıdır, ümumiyyətlə cinayət prosesində qəbul edilmiş inzibati məhkəmənin qərarı ilə artıq ziddiyyət təşkil edən qərarların taleyi necə olmalıdır ?